Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

30 NOYABR
2022-Cİ İL
№ 022 (169)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## GÜRCÜSTANDA “HONQ KONQ QRİPİ”NƏ YOLUXMA HALLARI ARTIB



“Gürcüstanda qripə yoluxma halları yenidən artıb və bu il xəstələrin əksəriyyətində “Honq Konq qripi” aşkarlanıb”. Bu barədə Tbilisi İaşvili adına Mərkəzi Uşaq Xəstəxanasının nümayəndəsi İvane Çxaidze məlumat verib.

Onun sözlərinə görə, hazırda ölkədə H3N2 virusu yayılmaqdadır. Bununla yanaşı H1N1 virusu da təhlükə yaradır.

İ.Çxaidze deyib ki, bu il Gürcüstanda qripin yayılması çox erkən başlayıb. Həkimlər dekabr-yanvar aylarında “omikron” koronavirus ştamının yayılması ilə eyni vaxtda qripə yoluxma hallarının pik səviyyəsini gözləyirlər. Həkimlər xəbərdarlıq edir ki, qrip və koronavirusun müalicə rejimi fərqlidir, ona görə də əvvəlcədən düzgün diaqnozun qoyulması çox vacibdir.

Qripin bu il əksər hallarda, xüsusən də kiçik uşaqlarda “omikron”dan daha çətin olacağı proqnozlaşdırılır.

***“Son illər ərzində həyata keçirilən məhdudiyyətlər və epidemiya əleyhinə tədbirlər əhali arasında qripə qarşı immuniteti olan təbəqəni praktiki olaraq aradan qaldırıb. İndi çox az adamda antitel var. Qripə yoluxma hallarının pandemiyadan əvvəlki dövrlə müqayisədə daha çox olacağı gözlənilir”,*** – deyə Çxaidze vurğulayıb.

Bildirilib ki, həm qrip, həm də “omikron” üçün risk qrupları eynidir. Belə ki, yaşı 65-dən yuxarı olanlar, iki yaşa qədər uşaqlar, hamilə qadınlar və xroniki bronxopulmoner xəstələr, ürək, böyrək, qan xəstəlikləri, endokrin və metabolik pozğunluqları olan insanlar yüksək risk qrupuna aiddirlər.

## SALOME ZURABİŞVİLİ: “BİZİM NƏ GÜCLÜ HÖKUMƏT İNSTİTUTLARIMIZ, NƏ DƏ MƏHKƏMƏ SİSTEMİMİZ VAR”



“Bizim nə güclü hökumət institutlarımız, nə də məhkəmə sistemimiz var”. Bunu Prezident Salome Zurabişvili Eka Beselianın partiyasının təşkil etdiyi ədliyyə islahatları ilə bağlı tövsiyələrin təqdim olunduğu tədbirdə deyib.

Onun sözlərinə görə, ölkədə başlıca məqsəd hərtərəfli razılığa gəlmək olmalıdır, bu baş tutmayacağı təqdirdə isə hər şey mənasız olacaq.

***“Biz namizəd ölkə statusu üçün müraciət edəcəyimizi gözləmirdik; bunu 2024-cü ildə etməyi planlaşdırırdıq. Biz bunun üçün qarşı tərəfə təşəkkür etməliyik. Ukraynada bu gün də çox ağır vəziyyətdir. Orada bombalar dayanmır. Ukraynada həyatını itirən 27 gürcü döyüşçüsünün xatirəsini hörmətlə yad etmək istəyirəm.***

***12 banddan ibarət tövsiyələr paketində aydın görünür ki, başlıca məsələ ədliyyə islahatlarıdır. Bizim nə güclü hökumət institutlarımız, nə də məhkəmə sistemimiz var. Ədliyyə islahatları üzərində işləmək bir imkandır. Bu bizim Sovet sistemindən çıxmağımız üçün yeganə yoldur. Başqa yol mövcud deyil və digər bütün yollar bundan qaynaqlanır. İnsan hüquqlarının qorunması, biznesin qorunması, diskriminasiyanı yenmək, başqalarını dinləməyin vacibliyi, özəl mülkün toxunulmazlığını müəyyən etmək kimi şeylər – bütün bunlar, demokratiya dediyimiz amillərin hamısı ədliyyə sistemindən keçir. Ədliyyə islahatları ilə bağlı razılığa gəlmək bizim bu sahədə bilmədiklərimizi öyrənmək üçün bir imkandır. Hüquq sistemi mövcud olmasa, bu o deməkdir ki, heç nə qorunmur. Ölkə daxilində razılıq əldə etməliyik, bu baş tutmasa heç nə əldə edə bilməyəcəyik. Razılığa gəlməyimiz isə o deməkdir ki, hər bir partiya Gürcüstanın maraqlarını öz maraqlarından üstün tutmalıdır”,*** – deyə S.Zurabişvili bildirib.

## AVROPA KOMİSSARI: AVROPA İTTİFAQI GÜRCÜSTANI ÜZVLÜK ÜÇÜN HAZIRLAYIR



Genişlənmə və Qonşuluq Siyasəti üzrə Avropa komissarı Oliver Varhelyi Avropa İttifaqının Gürcüstanı üzvlük üçün hazırladığını deyib. Oliver Varhelyi bu barədə Tbilisiyə işgüzar səfərindən sonra özünün tviter səhifəsində yazıb.

***“Gürcüstan vətəndaşlarının böyük əksəriyyətinin Avropa İttifaqına üzvlük tərəfdarı olduğunu görürük. Bu, təkcə hökumət üçün deyil, ölkənin bütün siyasi elitası və bu işdə fəal iştirak edən hər kəs üçün çox güclü mandatdır. Biz Gürcüstanı Avropa İttifaqına üzvlük üçün hazırlayırıq”,*** – deyə o bildirib.

Noyabrın 15-16-da Tbilisiyə səfər edən Oliver Varhelyi Gürcüstan Prezidenti Salome Zurabişvili, Baş nazir İrakli Qaribaşvili, parlamentin spikeri Şalva Papuaşvili, həmçinin parlament fraksiyalarının nümayəndələri ilə danışıqlar aparıb. Avropa komissarı səfər zamanı ittifaq üzvlüyünə namizəd statusu üçün zəruri olan islahatların gedişini müsbət qiymətləndirib.

İyunun 23-də Aİ liderləri Gürcüstana Avropa İttifaqı üzvlüyünə namizəd statusunun verilməsi üçün 12 tövsiyə müəyyən ediblər. Buraya korrupsiyaya qarşı mübarizə, qanunun aliliyinin möhkəmləndirilməsi, oliqarxlara qarşı qanunun qəbulu, ombudsmanın seçilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi və digər aspektlər daxildir.

Səh. 2 ÖLÜMƏ APARAN YOLLAR - Azər Musaoğlu yazır
Səh. 3 YTB KOORDİNATORU: "TƏHSİL VERDİYİMİZ TƏLƏBƏLƏRİN VƏTƏNLƏRİNƏ QAYIDARAQ XALQINA VƏ ÖLKƏSİNƏ FAYDALI OLMAĞINI İSTƏYİRİK"
Səh. 4 MÜƏLLİMLƏRİN VƏ BAĞÇA İŞÇİLƏRİNİN ƏMƏKHAQQI ARTIRILIR
Səh. 4 ANALIQ MƏZUNİYYƏTİNƏ GÖRƏ 2000 LARİ VERİLƏCƏK
Səh. 5 HARA TƏLƏSİRSİNİZ? - Anar Rafiqoğlu yazır
Səh. 5 ÜMİD İŞIĞI - Aytən Fətullayeva yazır
Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır



# ÖLÜMƏ APARAN YOLLAR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Əziyyətlə, çətinliklə uşaq böyüt, bağçaya, məktəbə etibar edərək yola sal, yol hərəkəti qaydalarına sürücülərin əməl edəcəklərinə inanaraq rahat ol, hansısa eşşək sürücü də sənin dövlətin bağçasına, məktəbinə, yol qaydalarına olan etibarını, inamını, rahatlığını burnundan gətirərək uşağını maşınla vurub öldürsün.

Niyə axı?

Əvvəla, ona görə ki, bu ölkədə qanunlar, qaydalar yalnız kağızlar üzərində qovluqlarda tozlanmaq üçün yazılır. Bir qanun, qayda ölkənin paytaxtında tətbiq edilirsə, bölgələrə gəlib çatana kimi artıq iş işdən keçmiş olur, dava düşür, qan tökülür, insan ölür.

Sonra da ki, məmə yeyəndən pəpə deyənə – hamı maşın sürür. Axı imtahan testinin suallarını əzbərləyib, sükanı bir-iki dəfə sağa-sola döndərməklə sürücülük vəsiqəsi almaq sürücü olmaq demək deyil.

Bu gün mən yaşadığım şəhərdə yolu keçə bilmirəm, hər dəfə şəhərin içi ilə keçən 15-20 metr eni olan əsas yolu keçəndən sonra sağ qalmağıma şükr edirəm. Bəs uşaqlar, qocalar neyləsinlər?..

Dövlətin qoyduğu yol hərəkəti qaydaları nişanlarını eyninə alan yoxdur. Piyada keçidlərini saymırlar. Harada görünüb piyada keçidlərində avtomobil park edilə? Harada görünüb piyada keçidlərində maşınların dayanıb piyadaya yol verməsi əvəzinə, piyada dayanıb dəqiqələrlə maşınların keçməsini gözləyə, bəlkə hansısa insaflı, qanacaqlı sürücü saxlaya, arxasıyca gələnlər də ona baxıb məcbur maşınlarını saxlayalar ki, yazıq piyada bu eni 15-20 metrlik yolu sağ-salamat adlaya. Harada görünüb sürəti azaltmaq üçün asfalta bərkidilmiş "tramplinlər" maşınların təkəri enində sökülə? Harada görünüb yol hərəkəti qaydaları nişanları sökülüb atıla və ya yerləri dəyişdirilə? Harada görünüb şəhərin ortasında, məktəbin, bağçanın yanında, yaşayış məntəqələrində, istirahət parklarının yanında at sürəti, eşşək qanacağı ilə avtomobil sürülə? Harada görünüb istirahət parklarının dörd tərəfində, avtobus dayanacaqlarında, yolların kənarlarında, səkilərdə taksilər dayana, gediş-gəlişə mane ola? Harada görünüb "marşrutkalara" o qədər adam doldurula ki, baqaj üçün nəzərdə tutulmuş arxa qapıdan minib-düşülə? Harada görünüb yolun ortasında avtomobili saxlayıb öpüşüb-görüşüb hal-əhval tutula? Harada görünüb istirahət parkının fəvvarəsində adamı tok vurub öldürə? Harada görünüb məktəbdə şagird şagirdi bıçaqlayıb öldürə? Harada görünüb 12 yaşlı məktəbli uşaq dünyaya gətirə?..

Heç mətləbdən-zaddan uzaq getmədim. Bütün bunların, eləcə də yer məhdud olduğu üçün burada qeyd edə bilmədiklərimin hamısının mətləbə birbaşa dəxli var. Çünki insan həyatından söhbət gedir. Çünki əziyyətlə, çətinliklə uşaq böyüdürsən, onu da dövlətin bağçasına, məktəbinə, parkına, yoluna, avtobusuna, universitetinə, qanununa, ərazi bütövlüyünə etibar edirsən, güvənirsən, yola salırsan, hansısa eşşək sürücü, yumşaq desək, avtomobil sürə bilən eşşək də öz arabasıyla sənin övladının üstündən keçir...

Axı nə qədər danışmaq olar, yazmaq olar?! Nəzarət kameraları qoyulasıdırsa niyə ölkənin hər yerində qoyulmur? Niyə Qardabanidə (digər şəhərləri dəqiq bilmirəm deyə adlarını qeyd etmirəm, amma əminəm ki, bölgələrdə yolların çoxunda nəzarət kameraları hələ də qoyulmayıb) yollarda bir dənə də olsun nəzarət kamerası yoxdur? Patrul xidməti niyə ölkənin hər yerdində eyni nəzarət eləmir, məsələn, niyə yollara, sürücülərə nəzarət eləmək üçün patrullar Qardabaniyə Rustavidən gəlməlidir? Niyə təkcə Rustavinin patrulları gələndə hamı "özünü yığışdırmalı", kəmərləri taxmalı, sükan arxasında telefonla danışmamalı, sürət göstərən işarələrə əməl etməli və s. Bu nə əndərəbadi qaydadır, qanundur belə? Bu qaydanı hansı şırımsız beyinlər düşünüb görəsən?..

Son zamanlar piyada ölümlərinin sayı, avtomobil qəzalarının sayı çoxalıb. Burada əli çıraqlı günahkar axtarmağa lüzum da yoxdur – günah da, günahkar da ortadadır. Bananla, ananasla – müxtəlif kod və üsullarla test əzbərlətdirib imtahana yola salan şəxsdən tutmuş, imtahan keçirənə, sürücülük vəsiqəsi verənə qədər, sürücüləri başlı-başına buraxaraq heç bir nəzarət etməyən, cəza, cərimə tətbiq etməyən qurumlara qədər, qanun hazırlayan, qanunu icra edən (oxu: etməyən) qurumlara qədər, problemləri görüb həlli üçün sellülitli yanını isti kreslosundan tərpətməyən səlahiyyətlilərə qədər və s. hamı günahkardır. Bir axmağın məsuliyyətsizliyi insanların həyatı bahasına başa gələ bilər, gəlir də! Çox, lap çox məsuliyyətli olmaq lazımdır. Yoxsa, bu nədir, elə bil şəhər deyil, maşın bazarıdır.

## GƏLƏN İLİN BÜDCƏSİNƏ ƏSASƏN, PENSİYALAR ARTIRILACAQ

Gürcüstanın maliyyə naziri Laşa Xutsişvili parlamentdə 2023-cü ilin dövlət büdcəsi layihəsinin təqdimatı zamanı bildirib ki, gələn ilin büdcə layihəsinə əsasən, pensiyalar artırılacaq.




"Layihəyə əsasən, sosial müdafiə proqramlarının maliyyələşdirilməsi 2021-ci illə müqayisədə artırılıb, pensiya və kompensasiyalar üçün 3 milyard laridən artıq, hədəf sosial qrupların yardımları üçün 1 milyard 150 milyon laridən artıq, dağlıq məntəqələrdə yaşayanların yardımları üçün 85 milyon lari, uşağa qayğı və sosial bərpaetmə proqramları üçün 70 milyon lariyə qədər, işlə təmin edilməyə dəstək üçün 80 milyon laridən artıq, pensiya sxeminin qarşılıqlı maliyyələşdirilməsi üçün 310 milyon lari, bələdiyyələrin sosial proqramları üçün 290 milyon lari nəzərdə tutulub.

Artırılmış büdcə çərçivəsində 70 yaş və yuxarı olan şəxslərin pensiyalarının 65 lari artırılması nəzərdə tutulub. Bunu nəzərə almaqla, dağlıq məntəqələrdə yaşayanların pensiyaları qanunla müəyyə edilmiş pensiya əlavəsi ilə birlikdə 438 lari, qalan təqaüdçülər üçün isə 365 lari olacaq. 70 yaşa qədər olan şəxslərin pensiyası isə 35 lari artırılır. Bunu nəzərə almaqla, dağlıq məntəqələrdə yaşayanların pensiyası əlavə də daxil olmaqla 354 lari, qalan təqaüdçülər üçün isə 295 lari olacaq. Ciddi şəkildə və 18 yaşa qədər fiziki imkanları məhdud olan şəxslərin yardımı 65 lari artırılır. Digər kateqoriyalarda fiziki imkanları məhdud olan şəxslərin yardımı isə 35 lari artırılır.

Həmçinin məcburi köçkünlərin yerləşdirilməsi üçün 7 min mənzil üçün nəzərdə tutulmuş yaşayış kompleksinin tikintisinə başlanılır. Bunun üçün 2023-cü ildə 230,0 milyon lari ayrılacaq", – deyə nazir qeyd edib.

## SAAKAŞVİLİNİN BƏDƏNİNDƏ ZƏRƏRLİ MADDƏ AŞKARLANIB



Gürcüstanın həbsdə olan üçüncü Prezidenti Mixeil Saakaşvilinin bədənində daha bir zəhərli maddə aşkarlanıb.

Bu haqda məlumatı onun vəkili Şalva Xaçapuridze yayıb. Məlumata görə, dırnaq analizinin cavabı hələ ki açıqlanmayıb, lakin telefon danışığı zamanı daha bir zəhərli maddə – arsenium aşkarlandığı bildirilib.

Toksikoloji analizlərin yekun cavabının ABŞ-dan göndəriləcəyi bildirilib. Gürcüstanın insan haqları müvəkkili (Ombudsman) Nino Lomcaria da noyabrın 28-i Mixeil Saakaşvilini Tbilisidə müalicə aldığı klinikada ziyarət edib. O, jurnalistlərə açıqlamasında Saakaşvilinin səhhətindəki problemlərlə şəxsən tanış olmaq istədiyini bildirib.

Qeyd edək ki, daha əvvəl Saakaşvilinin saç nümunələrinin analizi zamanı civə, barium və bismut kimi zərərli maddələrin aşkarlandığı açıqlanıb.

## 574 700 NƏFƏR BİR AYDAN ÇOXDUR BANKA OLAN KREDİTİ ÖDƏYƏ BİLMİR

Gürcüstanın 574 700 vətəndaşı bir aydan çoxdur banka olan krediti ödəyə bilmir. Bu barədə Milli Birlik Hərəkatı Partiyasının deputatı Levan Xabeişvilinin sualına Gürcüstan Milli Bankının cavabında bildirilib.




Milli Bankın məlumatına görə, vaxtı keçmiş bütün kreditlərdən 312 900 vətəndaşın banklara, 93 900 nəfərin mikromaliyyə təşkilatlarına, 280 900 vətəndaşın lombardlara, 6 900 nəfəri isə lizinq təşkilatlarına borcludur.

Bildirilib ki, cəmi 574,7 min vətəndaş ümumi məbləği 4,4 milyon lari olan 1,1 milyon krediti qaytara bilmir.

Qeyd edək ki, 2018-ci ilin noyabrında Gürcüstanın o vaxtkı Baş naziri Mamuka Baxtadze 600 mindən çox vətəndaşın 570 milyon dollarlıq kreditinin ödənilməsi haqqında qərar qəbul etmişdi.

# YTB KOORDİNATORU: "TƏHSİL VERDİYİMİZ TƏLƏBƏLƏRİN VƏTƏNLƏRİNƏ QAYIDARAQ XALQINA VƏ ÖLKƏSİNƏ FAYDALI OLMAĞINI İSTƏYİRİK"



**Türkiyədə təhsil almaq istəyən gənclərimizi nəzərə alaraq Gürcüstanda "Türkiyə təqaüdləri" proqramının təbliğatı üçün səfərdə olan Yurtdışı Türklər və Akraba Topluluklar Başqanlığının koordinatoru Mustafa Yakupoğlu ilə görüşüb müsahibə aldıq. Müsahibəni sizə təqdim edirik.**

**Yeni Yol: "Türkiyə təqaüdləri" nədir və kimlər bu proqramdan faydalana bilər?**

**Mustafa Yakupoğlu:** "Türkiyə təqaüdləri" Türkiyə Cümhuriyyətinin beynəlxalq tələbələrə təklif etdiyi ali təhsil proqramıdır. 1992-ci ildən davam edən bu layihə 2012-ci ildə "Türkiyə Bursları" markası adı ilə təkmilləşdirilmişdir. Bu proqlamla istəyənlər Türkiyədə bakalavr, magistratura, doktorantura və araşdırma sahəsində Türkiyədə təqaüdlə ali təhsil ala bilirlər.

**Yeni Yol: Bəs "Türkiyə təqaüdləri" çərçivəsində hansı imkanlar verilir?**

**Mustafa Yakupoğlu:** "Türkiyə təqaüdləri" proqramı ilə tələbələrə bir çox imkanlar təqdim olunmaqdadır. Bunları qısaca olaraq belə izah edə bilərik: abituriyent bu proqramı qazandığı təqdirdə onun yataqxana ilə təmin olunması bir çox digər proqramlardan fərqlənməkdədir. Başqa təqaüd proqramlarından fərqli olaraq, tələbə hər hansı bir univrsitetdən dəvət almadan birbaşa "Türkiyə təqaüdləri" proqramı vasitəsilə tələbənin özünün seçmiş olduğu universitetə qəbul edilir. Bununla yanaşı, xaricdən gələn tələbələrin dərslərinə fokuslanmaları üçün biz onların bütün ehtiyaclarını qarşılayırıq. Buraya yataqxana ilə təmin etmə, sağlamlıq sığortası, nəqliyyatla təmin etmə və tükr dili hazırlıq kursları daxildir. Həmçinin xaricdən gələn tələbələrin təhsil haqqını ödəyərək onlara dəstək oluruq. Bu bəhs olunan xərcləri "Türkiyə təqaüdləri" proqramı aidiyyatı orqanlara ödəməkdədir. İmkanlar çox geniş və əhatəlidir. Bununla yanaşı, universitet həyatından başqa tələbələrin akademik çalışmaları yönündə də özlərini yetişdirmələri üçün fərqli seminarlar, konfranslar və təcrübə proqramları da həyata keçirilir.

**Yeni Yol: Müraciətlər nə zaman başlayır və yaş məhdudiyyəti varmı?**

**Mustafa Yakupoğlu:** "Türkiyə təqaüdləri" proqramının artıq hər kəs tərəfindən qəbul edilmiş bir müraciət tarixi vardır. Hər ilin 10 yanvar – 20 fevral ayları arasında, haradasa 40 günlük bir müraciət zamanı təyin olunmaqdadır. Bu tarix 2023-cü il üçün də dəyişməz olaraq qalmaqdadır. Müraciətlər **"turkiyeburslari.gov.tr"** səhifəsi üzərindən həyata keçirilməkdədir. Müraciət, dediyimiz kimi, yalnız internet üzərindən həyata keçirilməkdədir. Bu mərhələdə abituriyent şəxsi səhifəsini açır, məlumatlarını yükləyir və təhsil almaq istədiyi fakültələri və universitetləri seçərək qeydiyyatdan keçir. Qeydiyyat zamanı abituriyentin qiymət vərəqəsinin surəti, müvəffəqiyyətlərini göstərən sənədlərin surətləri tələb olunur. Həmçinin onların məqsəndlərini bilmək və sözlü imtahanda iştirak etmələrinə köməkçi olması üçün də niyyət məktubu istənilməkdədir. Bu proses cəmi 30-40 dəqiqə içərisində tamamlanacaq bir prosesdir.

**Yeni Yol: Abituriyent sadəcə bir sahə üzrəmi qeydiyyatdan keçir, yoxsa bir neçə fakültə və ya fərqli universitetlər seçmə hüququna sahibdirmi?**

**Mustafa Yakupoğlu:** Əlbəttə, müraciət zamanı bir neçə fakültə və universitet seçmək mümkündür. Xüsusilə də bakalavr üçün bir neçə seçim etmək şansına sahibdirlər. Təbii ki, magistratura və ya doktorantura üzrə təhsil almaq istəyənlər öz bakalavr sahənələrinə uyğun olaraq seçim etsələr daha çox şansa sahib olarlar. Əgər dəqiq cavab verəsi olsaq onu deyə bilərəm ki, 12 fakültə və 12 universitet şeçmə şansına da sistem icazə verir.

**Yeni Yol: Bəs bu proqram vasitəsilə təhsil alıb məzun olan tələbələr sonra işlə təmin olunurlarmı?**

**Mustafa Yakupoğlu:** Təbii ki, bayaq da qeyd etdiyim kimi, "Türkiyə təqaüdləri" proqramı tələbələrin qeydiyyatından, Türkiyədə təhsil müddətini, hətta məzuniyyətdən sonrakı dövrdə onların işlə də təmin olunmasını əhatə edən bir təqaüd proqramıdır. Bizim təxminən 30 ölkədə 33 məzunlar dərnəyimiz bu gün aktiv olaraq fəaliyyət göstərməkdədir. Təhsil müddəti ərzində də onları iş dünyası ilə tanış etmək məqsədi ilə təcrübə paylaşma proqramlarına təşviq edirik. Bu mövzuda da, xüsusilə məzunlar dərnəklərimizin vasitəsilə və başqanlığımızın fəaliyyətləri ilə də onların işlə təmin olunmalarına köməkçi olmaqdayıq.

**Yeni Yol: Türkiyədə verilən diplomların keçərliliyi dünyada, xüsusən də Gürcüstanda hansı səviyyədədir?**

**Mustafa Yakupoğlu:** Bizlər bu proqram çərçivəsində Türkiyənin ən prestijli universitetləri ilə əməkdaşlıq etməkdəyik. Gürcüstan mövzusunda isə bizim diplomların qəbulu söz mövzusu belə deyil. Çünki Türkiyədə təhsil aldıqdan sonra diplomun tanınması mövzusunda Gürcüstan vətəndaşlarının heç bir sıxıntı yaşamayacaqlarını könül rahatlığı ilə ifadə edə bilərəm.




**Yeni Yol: Tez-tez qarşılaşdığımız sualı sizə yönləndirim: "Türkiyə təqaüdləri" proqramı çərçivəsində təhsil alan tələbələr məzun olduqdan sonra Türkiyədə qalıb fəaliyyət göstərə bilərlərmi, yoxsa vətənlərinə dönmələri üçün hər hansı bir şərt varmı?**

**Mustafa Yakupoğlu:** Əlbəttə ki, biz təhsil verdiyimiz tələbələrin vətənlərinə qayıdaraq xalqına və ölkəsinə faydalı olmağını istəyirik, bu yöndə də məsləhətlərimizi veririk. Əgər Türkiyədə qalıb ölkəsinə və millətinə buradan da fayda verə biləcəksə, işləmək icazəsi alaraq Türkiyədə qalıb işləməsinə biz qarşı çıxmırıq. Hətta üçüncü bir ölkədə də gedib işləyə bilərlər. Ancaq "Türkiyə təqaüdləri" proqramının əsas məqsədi məzun olduqdan sonra tələbənin öz vətəninə qayıdaraq oradakılara fayda verə bilməsidir.

**Yeni Yol: Müsahibəniz və bizə ayırdığınız vaxt üçün sizə təşəkkür edirik! İnşallah ki, gənclərimiz üçün də faydalı bir müsahibə olacaq.**

**Mustafa Yakupoğlu:** Biz də sizə təşəkkür edirik ki, bu fürsəti bizə verdiniz. Sizin vasitənizlə, inanırıq ki, bir çox gəncə "Türkiyə təqaüdləri" proqramını tanıda bildik. "Yeni Yol" qəzetinə də uzun ömürlü yayım həyatı diləyirəm!

## MÜƏLLİMLƏRİN VƏ BAĞÇA İŞÇİLƏRİNİN ƏMƏKHAQQI ARTIRILIR



Gürcüstanın maliyyə naziri Laşa Xutsişvili ölkə parlamentinə 2023-cü ilin büdcə layihəsini təqdim edərək qeyd edib ki, yeni ildən təhsilə ayrılan maliyyə 1 milyard 655 milyon lari nəzərdə tutulub. Bu məbləğ çərçivəsində statusu olan müəllimlərin, eləcə də məktəb mandaturlarının əməkhaqqı 125 lari artırılacaq. Məktəb rəhbərliyi, psixoloqlar və sosial işçilərin əməkhaqqı isə 10 faiz artırılacaq:

***"Statusu olan müəllimlərin, həmçinin xüsusi müəllimlərin əlavəsi və məktəb mandaturlarının əməkhaqları 125 lari; məktəb rəhbərliyi heyətinin, psixoloqların və sosial işçilərin əməkhaqlarının isə 10 faiz artırılması nəzərdə tutulub".***

Bundan əlavə, məktəb müəllimlərinin analıq məzuniyyəti də 6 ay müddətinə maliyyələşdiriləcək, peşə məktəbi müəllimlərinin saata uyğun əməkhaqqı isə 15 laridən 18 lariyə qədər artırılacaq.

2023-cü ilin büdcə layihəsinə əsasən, məktəbəqədər təhsilə dəstək üçün 490 milyon lari nəzərdə tutulub.

L.Xutsişvili çıxışı zamanı uşaq bağçalarında işləyənlərin əməkhaqqı məsələsinə də toxunaraq qeyd edib ki, gələn ildən bağça işçilərinin əməkhaqqı 100 lari artırılacaq:

***"Məktəbəqədər təhsilin maliyyələşdirilməsi 490 milyon lari təşkil edir və uşaq bağçaları heyətinin əməkhaqlarının 100 lari artırılması nəzərdə tutulub".***

## ANALIQ MƏZUNİYYƏTİNƏ GÖRƏ 2000 LARİ VERİLƏCƏK



Yanvarın 1-dən analıq məzuniyyəti dövründə yardım özəl sektorda işləyənlər üçün də 1000 laridən 2000 lariyə qədər artırılacaq. Bu barədə Baş nazir İrakli Qaribaşvili hökumətin iclasında bildirib.

***"Analıq məzuniyyəti məsələsi kifayət qədər problemli məsələ idi. Müzakirə apardıq və qərar verdik ki, özəl sektorda işləyənlər üçün də analıq məzuniyyəti dövründə yardımı ikiqat edək. Bu məbləğ yanvarın 1-dən 1000 lari əvəzinə 2000 lari olacaq.***

***Gələn ildən məktəb müəllimləri analıq məzuniyyəti dövründə əməkhaqlarını tam ala biləcəklər. Bu, artıq özəl sektorda işləyənlərə də aiddir",*** – deyə Baş nazir bildirib.

## MƏKTƏBLƏRİN VƏ BAĞÇALARIN MALİYYƏLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR HÖKUMƏT QƏRAR QƏBUL EDİB



Baş nazir İrakli Qaribaşvili hökumətin iclasında bildirib ki, məktəblərdə kompüter laboratoriyalarının yaradılmasına 30 milyon laridən çox pul xərclənəcək.

***"Bilirsiniz ki, yanvarın 1-dən məktəblərin tikinti və bərpasına başlanılacaq. 800 məktəb nəzərdə tutulub, 500 məktəbi təmir edirik və bu, gələcək nəsil üçün çox mühümdür. Bizim nəsil sağlam, yaxşı mühitdə böyüməlidir. Bundan əlavə, 30 milyon laridən çox pul məktəblərdə kompüter laboratoriyalarının yaradılmasına xərclənəcək",*** – deyə Baş nazir qeyd edib və əlavə olaraq bildirib ki, daha 150 milyon laridən artıq pul təhsilin maliyyələşdirilməsinə xərclənəcək.

Həmçinin uşaq bağçaları haqqında da danışılıb. Bildirilib ki, 2023-cü ilin 1 yanvarından uşaq bağçalarının tikinti-bərpa proqramı ölkə miqyasında başlayacaq. Layihə üç mərhələdə həyata keçiriləcək və dəyəri 1 milyard 300 milyon lari olacaq.

## MƏKTƏB DİREKTORU SERTİFİKATININ 7 İL VAXTI VAR




Müəllimlərin fənn kompetensiyalarını təsdiq etmək üçün verdikləri imtahanın nəticələri daimidir, ancaq direktor olmaq istəyənlərin sertifikatı yalnız 7 il qüvvədə qalır.

Hazırda direktor olmaq istəyənlər sertifikat almaq üçün hazırlaşırlar. Onlar arasında məktəb rəhbəri vəzifəsində səlahiyyətləri icra edənlər, eləcə də özlərini direktorluq vəzifəsində sınamaq istəyənlər var.

Direktor olmaq istəyənlərin sertifikatlaşdırılması iki mərhələdən ibarətdir: birinci mərhələdə 60 faizlik baryeri aşaraq imtahanı vermək, ikinci mərhələdə isə müsahibədən keçmək lazımdır.

Direktor olmaq istəyənlər hər iki mərhələni uğurla keçdikdə sertifikat əldə edəcəklər və onların məktəblərdə elan edilmiş vakansiyalara müraciət etmək hüquqları olacaq.

İctimai məktəb direktorunun seçim müsabiqəsinin keçirilmə qaydasında qeyd olunub ki, əgər imtahanı verərək serfikat almış direktor 7 il ərzində heç bir məktəbdə işləməzsə onun sertifikatı qüvvəsini itirir.

***Xatırladaq ki, direktorlar üçün imtahana qeydiyyat dekabrın 4-nə kimi davam edir. Qeydiyyatdan keçmək "directors.mes.gov.ge" veb-səhifəsində mümkündür.***

## VAHİD MİLLİ İMTAHANLARDA ABİTURİYENTLƏRİN UĞURSUZLUĞU 25 %-DƏN 35 %-Ə QƏDƏR DƏYİŞİR

Vahid milli imtahanlarda abituriyentlərin uğursuzluğu 25 %-dən 35 %-ə qədər dəyişir.

Təhsilin keyfiyyəti yenidən problem olaraq qalır, hökumətin "Gürcüstanın inkişaf strategiyasına baxış 2030" adlı sənədində qeyd olunub ki, son beş il ərzində şagirdlərin orta olaraq 15-20 %-i vacib təhsili başa vurduqdan sonra təhsillərini dayandırıblar və ya attestat imtahanlarını verə bilməyiblər.

***"Təhsilin keyfiyyəti ilə əlaqədar çatışmazlıqlar təhsil sisteminin bütün pillələrində özünü göstərir. Bu, aşağı səviyyəli akademik nailiyyətlər və təhsilin müxtəlif pillələrini aşmaq çətinliyində əks olunur. Şagirdlərin qiymətləndirilməsi üzrə beynəlxalq proqramın (PISA) 2018-ci il nəticələrinə görə, 78 iştirakçı ölkə arasında Gürcüstanda 15 yaşlı yeniyetmələr riyaziyyat üzrə 67-ci, oxu üzrə 71-ci və təbiət elmləri üzrə 74-cü yeri tutmuşdular.***

***Son beş il ərzində baza ümumi təhsil attestatı olan şagirdlərin təxminən 15-20 %-i vacib təhsili başa vurduqdan sonra təhsili dayandırıb və ya attestat imtahanlarını verə bilməyiblər. Qeyd edək ki, ali təhsil pilləsinə keçidin ön şərti vahid milli imtahanlardır və onun uğursuzluq göstəriciləri 25 %-dən 35 %-ə qədər dəyişir"*** – hökumətin sərəncamında qeyd olunub.

## GÜRCÜSTANDA RUSDİLLİ MƏKTƏB VƏ BÖLMƏLƏRİN SAYI ARTIRILIRMI?

Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli parlamentdə çıxışı zamanı müxalifət deputatlarının suallarına cavab verib. Suallardan biri Gürcüstanda rusdilli məktəb və bölmələrin sayının artırılması ilə bağlı olub.

**"Gürcüstanda 58 rusdilli ictimai məktəb və bölmə var. Hansıların ki, kontingenti böyüyür, eləcə də özəl rus məktəblərinin sayı artır. Belə bir zamanda nazirliyin siyasəti necədir?"** – sualına M.Çxenkeli cavab olaraq bildirib ki, 2022-ci ilin 1 yanvarından ictimai və özəl məktəblərdə rus bölməsinin sayı artırılmayıb, 2 ictimai məktəbdə, ümumiyyətlə, fəaliyyətini dayandırıb.

**"11 rusdilli məktəb və 45 rus bölməsi var. Rusdilli özəl məktəb avtorizasiyadan keçməyib. 2021-ci ilin may ayına olan göstəricilərə görə, rusdilli bölmədə 14 222, 2022-ci ilin noyabr ayına olan göstəricilərə görə isə, 16 042 şagird təhsil alırdı. Rusdilli kontingentə 1 829 şagirdin artırılması əsasən Ukraynada başlayan fövqəladə vəziyyət nəticəsində Ukrayna vətəndaşlarının Gürcüstan ərazisinə gəlməsi ilə əlaqədardır. Onlar Ukrayna ərazisində təhsil ala bilmirlər. Bu isə, rusdilli bölmə və məktəblərin sayının artırılmasını nəzərdə tutmur"** – deyə təhsil naziri bildirib.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**



# HARA TƏLƏSİRSİNİZ?

Dəyərli oxucular, əslində qəzetimizin bu nömrəsi üçün yazmaq istədiyim mövzu başqa idi, lakin son günlərdə ölkəmizdə yaşanan faciəvi yol qəzaları və bərabərində həyatını itirən gənclər, sönən ocaqlar məni vadar elədi ki, bu haqda yazım. Keçdiyimiz aylarda iki, ümumilikdə isə dörd sinif yoldaşını avtomobil qəzasında itirmiş biri olaraq bu mövzuda ürəkağrısı ilə olsa da, bir çox şey yaza bilərəm. Şübhəsiz ki, ölümlə nəticələnən avtomobil qəzalarının demək olar ki, hamısı yolhərəkət qaydalarının kobud şəkildə pozulması ilə bağlıdır. Qəzaların böyük əksəriyyəti isə yüksək sürət səbəbilə yaranır. Mən də sual verirəm: – “hara tələsirsiniz?” –yəni getdiyiniz yerə 10-15 dəqiqə gec, ya tez çatsanız nə dəyişəcək? 10-15 dəqiqə üçün milyonlarca dəqiqənizi itirməyə dəyərmi? Əslində, xüsusən gənclər arasında bu yüksək sürətin səbəbi harasa tələsmək də deyil. Dəfələrlə eşitmişəm ki, biri o birinə deyib: “Qaqan dünən 180-i sıxdı”. Təəssüf ki, bu sürət məsələsi gənclər arasında bir növ yarışa, fəxr duyulası hadisəyə çevrilib. Bəsit bir toxunuşla sağa-sola dönən sükana güvənərək dəyərmi həm özünüzün, həm də qarşınızdakı insanların həyatını riskə atmağa? Hər an hansısa bir hissəsində nasazlıq yarana biləcək bir dəmir parçasına güvənərək, dəyərmi sevdiklərinizi gözüyaşlı buraxaraq, cavan ömrünüzü puç etməyə?

Ümumiyyətlə, Gürcüstanda avtomobil idarə etmək çox qəliz məsələdir. İnsanlar sanki sükan arxasına ona görə otururlar ki, bütün qəzəblərini yola boşaltsınlar. Yeniyetmələr xatırlamaz, əvvəllər ictimai nəqliyyatda sürücülər siqaret çəkirdilər. Bir sürücü var idi, adına “Babu” deyirdilər. Ağsaqqal kişi idi. Damağından siqaret, ağzından söyüş əskik olmurdu. Sanki Babu üçün söymək bir növ sənət idi. Şərt o deyildi ki, kimsə hər hansı yol qaydasını pozsun. Uçan quşa belə bəzən: “Az qaldı şüşəmə dəyə, sənin lap...” – deyə küfr edən bir şəxs idi. Sonralar ictimai nəqliyyatda siqaret çəkmək qadağan olundu. Və ondan sonra bir daha Babunu görmədim. Babunu niyə misal gətirdim? Çünki o, məndə və bir çox sərnişində psixoloji travma yaratmışdı. Hər dəfə onun marşrutuna minəndə içimi qorxu bürüyürdü ki, çatanda necə “saxlayın” deyəcəm. Ağır eşitdiyinə görə “saxlayın” sözünü bir neçə dəfə təkrar etmək məcburiyyətində qalırdın və axırda istər-istəməz bir az ucadan deməli olurdun. Bax onda əsl qiyamət başlayırdı. Elə bir qiyamət ki, siz o ankı qorxu səhnələrini heç “Texas qətliamı” filmində də izləyə bilməzdiniz. Sözümün canı odur ki, elə bu dəqiqə də yollarımızda avtomobil idarə edənlərin əksəriyyəti Babu xarakterli, əsəbi, hətta, deyərdim ki, psixoloji problemləri olan şəxslərdir. Ona görə də, məncə yaxşı olardı ki, sürücülük vəsiqəsi imtahanlarında boş-boş, irəli-geri sürdürməkdənsə, daha çox psixoloji testlərə üstünlük verilsin. Onsuz da heç kəs avtomobil idarə etməyi imtahanda öyrənmir. Peşəkar sürücülük təcrübə artdıqca zamanla qazanılan bir keyfiyyətdir. Bundan əlavə, ən azından 2-3 ildən bir vəsiqəsi olan şəxslər gedib yenidən psixoloji yoxlanışdan keçməlidir deyə düşünürəm. Bu gün vəsiqə verdiyin şəxsin, bir neçə il sonra ruhi xəstəyə çevrilməyəcəyinin sığortası yoxdur. Bir də, məncə, yaxşı olardı ki, kameralar maksimum dərəcədə artırılsın. Çünki bu həqiqətən də qəzaları azaltmaqda işə yarayan bir metoddur. Etiraf edək ki, əksər sürücülər sırf kamera və cərimə qorxusundan sürəti azaltmaq və qaydalara əməl etmək məcburiyyətində qalırlar. Təəssüf ki, bəzi insanlar kameradan və cərimədən qorxduqları qədər Allahdan və öz vicdanlarından qorxmurlar.

Amma nə etsək də, bəzən Gürcüstan yollarında qəza etməmənin imkansız olduğu anlar olur. 2022-ci ildə yaşamağımıza baxmayaraq, hələ də bəzi şəhərlərdə, küçələrdə elə bərbad yollar mövcuddur ki, yolun özü birbaşa: “qəza et, əzizim” – deyir.

Camaat 6 aya bir şəhərcik inşa edir, bizdə isə mərkəzi yollar belə bəzən illərlə düzəldilmir. Kasıbın maşını da həmin yollarda darmadağın olur, sonra da texniki baxışda deyirlər ki, maşının əlverişsizdir. Bəs sənin yolların əlverişlidirmi?

Qayıdaq əvvələ və bitirək mövzumuzu. Statistikaya görə, dünyada hər il 1,2 milyon insan yol-nəqliyyat hadisələrində həyatını itirir. Yüksək sürət, spirtli içki qəbul edib sükan arxasına əyləşmək, yol boyu bir gözü telefonda nəyəsə baxmaq, avtomobili yorğun və yuxusuz halda idarə etmək... saydığım bu və digər hallar ən çox qəzaya səbəb verən amillərdir. Və bunlardan yayınmaq öz əlimizdədir...

**Anar RAFİQOĞLU**
*“Era Teatrı”nın bədii rəhbəri, rejissor*

# ÜMİD İŞIĞI



Bəzi insanlar niyə belədir axı? Bir işə başladıqları zaman, alınmırsa, o işi buraxıb ümidsizliyə qapılmağı seçirlər? “Artıq nə edəcəyimi bilmirəm”, “belə bir şey necə ola bilər”, “düzələn deyil”, “düzəlməsi artıq mümkün deyil” – bunlar bir çox insanın tez-tez istifadə etdiyi sözlərdir. Hər zaman bir işə başlayarkən o işin alınmayacağına, olmayacağına inanaraq başlamayın. Siz artıq bu işin olmayacağına inandığınızda, alınsa da, alınmasa da fərq etmədiyini düşünməyə başlamış olursunuz. İstədiyiniz şeyə ümidlə yanaşın, onu istədiyinizi göstərin.

Sizə adi bir hadisəni misal gətirmək istəyirəm. Bu yaxınlarda sürücülük vəsiqəsi almaq qərarına gəldim və oxuyub öyrəndim. Bacaracağıma əmin idim və elə də oldu. İmtahan günü gəlib çatdı, yüksək nəticə ilə imtahanı verdim. Sonra ikinci mərhələ üçün hazırlaşmağa başladım. Təbii ki, bu mənim üçün kompüter arxasında oturub işlədiyim testlər qədər asan olmadı, sükan arxasında əyləşməli idim və bunu bacarmağım bir az çətin oldu. Dəfələrlə sınadım özümü, hər dəfə imtahandan kəsildim. Amma ruhdan düşmədim, hər gün eyni həyəcan, eyni hisslərlə sükanın arxasına keçdim, hər dəfə geri qayıdanda “artıq burax başını, olmur, qızsan, nəyinə gərəkdir maşın, artıq neçənci dəfədir kəsilirsən” kimi sözlər dedilər. Mən isə buraxmadım, başladığım işi davam etdirdim. Çünki mükafatımı istəyirdim, buna görə də ümidsizliyə qapılmadım, tam on iki dəfə kəsildiyim imtahanı sonunda verdim, mən bacardım.

Dünya imtahan yeridir. Yəni gözəl, yaxud da pis davranıb-davranmayacağımızın sınanması üçün göndərildiyimiz bir yerdir. Xəstəlik, məktəb imtahanlarında müvəffəqiyyətsiz olmaq, birindən pis söz eşitmək... – bunların hamısı bir-bir və ya birdən, eyni vaxtda da insana imtahan olaraq verilə bilər. İnsan elə bir varlıqdır ki, hər şeyə dözə bilər. Əsas qarşınıza qoyduğunuz məqsəddən, xəyalını qurduğunuz şeydən vaz keçməyin. Bir dəfə yoxladım olmadı, demək ki, mənlik deyil, – deyə düşünməyin heç vaxt.

Həmyaşıdlarıma, yetişməkdə olan gənclərə demək istəyirəm ki, heç vaxt xəyalınızın arxasını buraxmayın, hər nə olursa olsun gedin onun arxasıyca. Bəzən ümidsizlik ola bilər, amma siz yenə də çalışın, bir şey olmursa, demək ki, vaxtı deyil, səbr edin, daha çox çalışın, olmaması üçün bir səbəb qalmayana kimi mübarizə aparın, başqa yolunu axtarın. Hər şeyi etsəz belə olmursa, demək ki, sizi daha gözəl bir şey gözləyir, ümidsizliyə qapılmayın heç vaxt. Hər zaman bir ümid vardır. Belə bir söz oxumuşdum, bu, bir az sizə gülməli gələ bilər, amma yenə də paylaşıram. Deyir: “Əgər biri sizə bir limon verirsə, ondan limonad düzəldin”.

Bir şeyi çox istəyirsinizsə bacaracağınıza inanın. Çünki insan beyni belədir – ərincəklik etməyə meyillidir. Bir şeyi etmək istəmədiyimiz zaman bizə etməməyimiz üçün hər cür bəhanə yarada bilər. Düşünün, evə yorğun bir şəkildə gəlmisiniz, dincinizi almaq üçün oturursunuz, bu zaman hər hansı bir tanışınız zəng vurur və “Gəl şəhərə çıxaq”, – deyə gəzməyə getməyi təklif edir. Siz bunun üçün qalxıb hazılaşacaqsınız, yol getməli olacaqsınız. Bu zaman ərzində müəyyən bir vaxt keçmiş olacaq. Bunu yorğun olduğunuz halda etdiniz, çünki bunu özünüzə bir mükafat olaraq seçmişdiniz. Əgər ərinməsəm, dursam, hazırlaşıb getsəm məni yaxşı bir şey gözləyir deyib etdiniz bunu. Hər şey belədir, əslində bu qədər sadədir: heç bir şeyi həmin dəqiqə əldə etmək olmur. Dərs oxumaqdan yorulduğunuzda “oxusam sonunda istədiyim universitetə qəbul olacam, yaxşı bir gələcək məni gözləyəcək, davam eləyim” deyin. İşləriniz çox olduqda “sonra edərəm” yox, “indi etsəm evə tez gedib dincələcəm” kimi kiçik mükafatlar verin özünüzə.

Unutmayın ki, hər nə olursa olsun, insanın kədərdən uzaq olması, kədər qaynağı kimi görünən hadisələrdə xeyirləri görüb gözəlliyə çevirməsi çox asandır.

**Aytən Fətullayeva**
*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ
## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK
## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Təhlil olunan eposda hər şeydən öncə Dirsə xanın Nigar xatununun dolğunluğu və zahiri gözəlliyi verilib ki, bu da 11-12 hecalı seqmentlərlə qurulan şeirlərlə bəyan edilib, verilib və 9 hecalı sətirlə (*2+2+2=9) sona yetir. Bunu ona görə qeyd edirəm ki, son sətir tez-tez fərqli ritmik sxem ilə yazılır və o xüsusi qayə ilə yüklənir, fərqlilik müvafiq müşaiyətlə də oxunur. Bu şeirə uyğun olaraq qadın hər şeydən öncə ərinin taleyi, ailə və ev-eşiyin təməlidir, lakin evdən çıxıb yeriyəndə sərv boylu bədəni ilə yırğalanır, qara saçları topuğuna dolaşır, çatma qaşları qurulu yaya bənzəyir, elə balaca ağzı vardır ki, qoşa badam sığa bilməz. Al yanaqları isə payızın qırmızı almasına bənzəyir *(D.D.K., səh. 36)*. Həyat yoldaşının və ümumiyyətlə, qadının gözəlliyini müqayisələrlə təsvir etmək türk xalq poeziyası üçün yad deyildir. İllah da, bu cür portret müəyyən cizgilərlə türk divan ədəbiyyatında bir növ yayılan gözəlin rəngkarlıq şəklini bizə xatırladır.

Lakin Dirsə xanın xatunu gələn ərini tək, oğlu yanında olmadan görəndə, ürəyinə damdı, qırx incəbelli qızı yanına aldı, bədəvi ata mindi və oğlunu axtarmaq üçün Qazılıq dağına yollandı. Atası tərəfindən ölümcül yaralanmış oğlunu müalicə etdi, ayağa qaldırdı. Bu ərəfədə isə, atasına oğlunu öldürməyi rəva görən vəhşilər və namərdlər, Dirsə xanın özünü onun qəzəbinin qarşısını almaq üçün əli-qolu bağlı tutub kafirlərə aparıblar *(Elə orada, səh. 46)*.

Bir növ diqqətəlayiq haldır ki, Dirsə xanın xatunu atası tərəfindən qurban verilmiş oğluna deyir:

***"Görürmisin, ay oğul, nələr oldı?!***
***Sarp qayalar oynanmadı, yer obrıldı.***
***Eldə yağı yoq ikən sənin babanın üstinə yağı gəldi.***
***Ol qırq naməṙd-babanın yoldaşları babanı tutdılar.***
***Ağ əllərin ardına bağladılar.***
***Qıl sicim ağ boynına taqdılar.***
***Kəndülər atlu, babanı yayaq yüritdilər.***
***Alubanı qalın kafir ellərinə yönəldilər.***
***Xanım oğul, qalqubanı yerindən uru durğıl!***
***Qırq yigidin boyuna alğıl!***
***Babanı ol qırq namərddən qurtarğıl.***
***Yüri, oğul! Baban sana qıydısa, sən babana qıymağıl!"***

Bundan sonra əsərdə dəfələrlə rast gələn "Oğlan anasının sözin sımadı" kəlməsi gəlir.

"Buğac bəg yerindən uru durdı, qara polat uz qılıcın belinə quşandı, ağ tozluca qatı yayını əlinə aldı, altun cidasın qolma aldı, bədəvi atmı tut-durdı, butun bindi. Qırq yigidin boyına aldı, babasının ardınca yortub getdi"... *(K.D.Q., səh. 42, D.K.K., səh. 12-130; O.D.D.K.K. səh. 46).*

Bu çıxarış bir neçə baxış dairəsinə görə maraqlıdır: birincisi, oğlu üçün fədakar ananın xarakteri özünü büruzə verir, eyni zamanda, o gözəl süvaridir; ikincisi, xatun ərinə sədaqətlidir. Oğlunu ölümcül yaralamağı özünə rəva görməsinə baxmayaraq o, özünə rəva görmür. Bunu öz oğluna da məsləhət görür. Oğuz folklorunda bərqərar olan etik inancın necə göründüyü elə burada səslənib: "Oğlan anasının sözin sımadı. Qırq yigidin boyına aldı, babasının ardınca getdi". Üçüncüsü də, bu kontekstdə ağ rəngli rəmz diqqəti cəlb edir: ağ əllər, ağ qatı ox. Burada ağ rəngin qeyd edilməsi o deməkdir ki, ağ yüksəlişin, xeyirxahlığın, nəcibliyin xəbər vericisidir.

Qısası, gətirilən çıxarışda zahiri gözəlliklə yanaşı, qadını güclü analıq sevgisi, ərinə qarşı həqiqi sədaqət gözəlləşdirməli və onun oğul və ata münasibətlərini nizama salmağa əli yetməlidir. Və bu da mənim üçün ən çox diqqətə layiqdir: o çətinliklərdən, təhlükələrdən heç cür qorxmayan mərd süvari olmalıdır, illah da ki, oğuz bəyləri kimi hərbi sənətə yiyələnməlidir.

Xanın xatunu boyu uzun Burla xatun əsir düşən oğlunu xilas etmək üçün heç nədən çəkinmir və igid oğuz bəyləri ilə birlikdə fədakarlıqla mübarizə aparır, mübarizənin ortasında cövlan edir və kafirlərin qara aləmini qılıncla parçalayır, yerə saldırır ki, bu da düşmənin məğlubiyyəti demək idi *(K.D.Q., səh. 102, D.K.K., səh.74; O.D.D.K.K. səh. 119).*

Bütün bunları əgər nəzərə alsaq, oğuz igidi özünə necə yar seçdiyi təəccüblü deyildir. O cümlədən, əri oyanana kimi səhər tezdən qalxmalı, düşmənə hücum etməmişdən öncə ondan tez atın belinə atlanmalı və düşmənin başını gətirməlidir. Bir sözlə, o özünə qız deyil, dost və həmfikir axtarmaq istəyir. Beləsi ov zamanı təsadüfən rastlaşdığı Banıçiçəkdir. Lakin qız öz şərtini irəli sürür. Əgər o layiqli igiddirsə, at çapmaqda, ox atmaqda və güləşməkdə onunla yarışmalıdır. Yarış baş tutur. Qızın tayı-bərabəri yoxdur və heç nədə öz gələcək adaxlısından geri qalmır. İllah da ki, Bamsı Beyrək böyük cəfaya baxmayaraq güclə ona qalib gəlir *(K.D.Q., səh. 66-67, D.K.K., səh. 35-36; O.D.D.K.K. səh. 74).*

Selcan xatun elə bu cür misilsizdir. O, görəndə ki, adaxlısı Qanturalının kafirlər üstünü aldırıblar:

"Bunu böylə gördü, içinə od düşdi. Bir bölük qaza şahin girmiş kibi kafirə at saldı. Bir ucından qırib kafiri, ol bir ucina çıqdı". Sonra düşməndən xilas olunmuş, mənliyi alçaldılmış Qanturalını şübhələr bürüyür və onu öldürmək istəyir. Selcan xatun ona ox atmaqda yarışa dəvət edir və o, elə bir dəqiqliklə ox atır ki, Qanturalının başında olan bit ayağına enir *(K.D.Q., səh. 121-123, D.K.K., səh. 94-96; O.D.D.K.K. səh. 143-145).*

Yuxarıda artıq, ümumiyyətlə, qadına qarşı, xüsusən adaxlı olası gəlinə qarşı oğuz igidinin baxış dairəsi barədə söhbət açdım ki, bu da təbiidir, qədim oğuz igidinin ənənələri ilə və həyat tərzi ilə qidalanır. İndi ona görə təkrarladım ki, "Dədə Qorqud" eposunun sonralar tamamilə islam libasına bürünməsinə baxmayaraq bu təhlil olunan epos üçün mübariz ruh və etik-estetik inancın qorunub saxlanması və dəyişməz qalması xarakterikdir. Diqqətəlayiqdir ki, fiziki qüvvə ilə və döyüş qabiliyyəti ilə oğuz xatunları oğuz igidlərindən geri qalmırlar. İllah da ki, onlar arasında bu döyüş (qılınc çalmaq, ox atmaq və s.), istərsə də fiziki qüvvə ilə yarışmaq, vuruşmaq, elə götürək, güləş güc və qabiliyyət bərabərliyinin əlaməti qoyulub. İllah da ki, bəzi hallarda təsəvvürü gücləndirmək üçün üstünlük qadına verilir. Doğrudur, islamın inkişafının erkən mərhələsində qadınlar da fəallıq göstərirdilər. Belə, məsələn, Məhəmməd peyğəmbərin həyat yoldaşı, "möminlərin anası" adlanan Ayişə dəvəyə minərək "Dəvə döyüşü"ndə iştirak edirdi *(Массе А., Ислам (очерки истории), М., 1962, стр. 43).* Lakin düşünməməliyik ki, onun döyüş meydanında görünməsi hərb sənətini nümayiş etdirmək deyil, döyüşçüləri ruhlandırmağa yönəlmişdi. Çünki, məlum olduğu kimi, Ayişə zərifliyi ilə və cazibədarlığı ilə fərqlənirdi və ən başlıcası, hərbi peşəyə tamamilə yiyələnməmişdi və fiziki qüvvə sahibi də deyildi. İllah da ki, islam üz örtüyü olmadan cəmiyyətdə görünməsini və kişilərlə namaz qılmasını qadağan edirdi. Belə ki, qadının güclülüyü və döyüş qabiliyyəti barədə bu estetik-etik kateqoriya "Amazonlar"ın mübariz obrazını bizə daha çox xatırladır. Bütövlükdə oğuz ənənəsinə və etik-estetik inama məxsus olur və islam şəriəti ilə qaydaya salınmış qadınların məhdudlaşdırılmış və təhqir edilmiş durumuna tamamilə uyğun gəlmir.

Burada, artıq qeyd etdiyim kimi, bu eposun girişində Dədə Qorqudun özünün mühakiməsinə aid deyil, başqa ozan tərəfindən əlavə olunmuş təsvir olunan ailənin evdar qadın tipologiyasına bir daha qayıtmayacağam. Başlıcası, hər halda odur ki, o, qəhrəmanlıq eposunun qayə məğzinə və etik-estetik modelinə tamamilə uyğun gəlmir.

Elə burada fövqəladə şəkildə qeyd etməyə bilmərəm ki, bu təhlil olunan əsərdə övladlarına qarşı, ələlxüsus isə oğullarına qarşı fədakar sevgi ilə, təəccüblü sədaqətliliyi ilə və onların yaramaz hərəkətlər etməmələrinə sarsılmaz inamla fərqlənən qadının bir ana və həyat yoldaşı olaraq obrazı yaradılıb.

Analıq mərhəməti ilə, artırılan ehtiyatlılıq ilə onlar qardaşın, istərsə də atanın əsir düşməsi xəbərini bildirmirlər. Nədir, nədir, onlara nəsə bir xələl gəlməsin və buna görə deyərdim ki, kobud töhmətə layiqdirlər. İllah da ki, töhmət döyüşə-məzəmmətə və hədə-qorxuya keçir, ana oğlunu təhlükəsiz xilas etməsinə görə kafirlərin qulluqçusu olmağa, kef məclisinin saqisi olmağa hazırdır ki, bunu da oğul atasının alçaldılması və özünə xəcalət verilməsi kimi hesab edir və bu abır palçığına batmaqdansa özünü qurban verməyi üstün tutur. Məhz elə buna görə oğul anasını öldürməyi özünə rəva görməyə hazırdır. Lakin ana bütün bunlara sakitcə səbir edir və dözür. Çünki oğul məhəbbətini özünün, ərinin və oğlunun ləyaqətindən daha yüksəkdə tutur.

Halbuki bunu elə başa düşməməliyik ki, oğuz xatunları öz ərlərini sevmirdilər, onların ləyaqətinə hörmət etmirdilər və onların qədrini bilmirdilər. Əksinə, "Dədə Qorqud"un qəhrəmanlarının fəaliyyət məhvəri ahəngdar ailə həyatının və ər-arvadın bir-birinə böyük hörmətlə mərzlənən etik-estetik məkandan keçir. Qısası, ənənəvi oğuz ailəsində ər və arvad arasındakı qarşılıqlı münasibətlər qaydasını müəyyən edən yüksək əxlaqi etiket hökm sürür ki, bu da gerçək sevgini və yüksək əxlaqı nəzərdə tutur. Doğrudur, üstünlük bir növ ölkə işlərinin həlledicisi və ailə paklığının qoruyucu cəngavəri olaraq kişiyə məxsusdur. Lakin ailənin daxili işlərini görən, onun paklığının və mənəviliyinin müdafiəçisi hər halda, lazım gəldikdə, igid ər kimi qılınc və oxla namus və ləyaqəti qoruyan qadındır. Lakin bu sonuncu həmişə oğuz igidinin qədrini bilir və ona üstünlük verir. Zira, əgər oğul həddini aşarsa, xeyir və şəri daha ayırd edə bilmirsə, əxlaq etiketini pozursa və onu təhqir edirsə, ölümlə də hədələyirsə, ona öz yerini göstərir və layiqli cavabını da verir. Məsələn, Selcan xatun öz nişanlısı Qanturalı ilə birlikdə düşməni məğlub edəndə xatun nişanlısını atın belinə aldı və qoşuna doğru yollandı. Yolda Qanturalının ağlına pis fikir gəldi: bu qadın oğuzlar arasında öyünəcək: Qanturalı yaralıydı, at belinə aldım, çıxdım, deyəcək. Buna görə də onu öldürmək qərarına gəlir. Selcan işin nə yerdə olduğunu bilir və onu sakitləşdirməyə çalışır, onu əmin edir ki, igid bəy, öyünürsə, ər öyünsün, aslandır! Lovğalanmaq arvad üçün nöqsandır. Öyünməklə arvaddan kişi olmaz. Lakin öz dediyindən əl çəkmədiyindən qəzəblənmiş qız: "Mərə, qavat oğlı, qavat! Mən aşağa qulpa yapışuram, sən yuqarı qulpa yapışursan" deyir və ox atmağa dəvət edir və üstünlük də qazanır. Lakin burada bir növ diqqətəlayiqdir ki, bu döyüşdə yayla atılan oxla deyil, eləcə də əxlaq qalib gəlir ki, bu da, təhlil olunan qəhrəmanlıq eposunun xatunlarına artıq dərəcədə mərhəmət deməkdir. Bir sözlə, təhlil olunan eposun əsaslar əsası əxlaqdır. Əxlaq isə gözəlliyin eyniyyətidir və əxlaqlı olan gözəldir, gözəl olan əxlaqlıdır. Dəfələrlə özünü bizə xatırladan qətnamə bu eposun açarlar açarıdır.

Təbiidir ki, "Dədə Qorqud"un əsas personajları hər halda mübarizəsi öz ailəsinin, özünün ləyaqətini qorumağa yönələn və təməli olan oğuz bəyləri-igidləridir ki, bu təməldə də bu eposun ideya məqsəd-hədəfi qurulub və o, süjetin inkişafının əsas məhvərini təşkil edir, müvafiq olaraq eposun bütün boyları oğuz igidlərinin sərgüzəştlərinə həsr olunur.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## GEDİŞ-GƏLİŞ

### 24. VELOSİPED – NİDERLANDIN MÜASİR SİMVOLLARINDAN BİRİ KİMİ



*(əvvəli ötən sayda)*

Bəs sənin ayağını yerdən üzən, mənzilbaşına daha tez çatdıran velosipedini necə qorumalı? Bunun üçün xüsusi qılafa malik zəncir kilidlər satılır. Onunla velosipedini arxa təkərindən at kimi çidarlamalısan. Yalnız arxa təkərindən ha, unutma. Başqa çıxış yolu yoxdur. Qabaq təkərindən qıfıllanmış velosipedindən sənə yalnız bir təkər yadigar qalacaq. Çünki velosipedin qabaq təkəri çox asanlıqla çıxır. Bunu da bilməyənlər üçün yazdım. Yadımdan çıxmamış, velosipedini müəyyən olunmuş yerlərdə park etməyi də unutma. Nədən ki, vətəndaşların şikayəti əsasında ildə minlərlə velosiped polis hücumuna məruz qalır, yığışdırılaraq, müsadirə olunur. Bunu da unutmasan yaxşıdır. Başqa bir məsələ də var. Axşamlar velosipedin ön və arxa işıqlarını yandırmalısan. Bunu etməsən 90 avro cərimələnmə ehtimalı hər an gerçəkləşə bilər. Sağa-sola dönüş yaparkən əllərindən istifadə etməyi də yaddan çıxarma. Bunu etməyənlərin də cərimə yemələri mümkündür.

Dedik ha, velosiped ucuz nəqliyyatdır. Velosiped sürmək üçün sənə sürücülük vəsiqəsi-filan, vaxt və pul sərf edib kursa getmək də gərəkmir. Bu işin asanlıqla həllinə qovuşur. Digər tərəfdən sən bu nəqliyyat vasitəsinə cüzi pulla, əlbəttə ki, Avropa meyarlarına uyğun olaraq sahiblənirsən. Velosipedin digər nəqliyyat vasitələri ilə müqayisədə ən böyük üstünlüyü isə yanacaqdan – benzindən, dizel yanacağından asılı olmayaraq hərəkətə gətirilməsidir. Yəni yanacağa da pulun çıxmır. Texniki baxımı da ucuz, su qiymətinə. Onun başqa bir özəlliyi isə, harada gəldi park edilə bilinməsində, bir az loru səslənsə də, at kimi hörüklənməsindədir. Böyük şəhərlərdə avtomobillərin park edilməsinin çətinlikləri ilə yanaşı, park etmənin baha olmasını da yaddan çıxarmayaq. Bununla bərabər pullu velosiped dayanacaqları da var. Burada velosipedin daha güvəndə olur, oğrudan-əyridən daha yaxşı mühafizə olunur. Bu xüsusiyyətlərinə görə velosiped bir nəqliyyat vasitəsi kimi əvəzolunmazdır. Demirlərmi, səndən əppək istəmir, su istəmir. At deyil, dəvə deyil gündəlik qayğı tələb edə. Bunlar elə velosiped üçün deyilmiş fikirlərdir.

Velosiped insan sağlamlığının qaynağıdır. Bu barədə bir-iki yerdə xatırlatmışdım. Unutmadığınıza əminəm. Nədən velosipedi sağlamlığın qaynağı hesab edirəm, indi onu deməyə çalışacam. Velosipedin insanın əzələləri hesabına hərəkət etdiyini bilməyən yoxdur. Sürücünün bütün bədən üzvləri onu hərəkətə gətirməkdə bu və ya digər dərəcədə iştirak edir. Bu, istər-istəməz idmanla məşğul olmağa bənzəyir. Düzdür, bu məcburi hərəkətlərin velosiped idmanı ilə elə də əlaqəsi olmaya bilər, ancaq bənzərlik göz qabağındadır. Xüsusi idman velosipedlərinin olduğunu, yəqin ki, əksəriyyətimiz də bilirik. Gündəlik velosipedlə harasa gedib-gələn adam həm vaxta qənaət edir, həm də sağlamlıq qazanır. Avropadan ilk növbədə nəyi mənimsəmək gərəkdiyini soruşsalar, mən düşünmədən "velosiped" cavabını verərdim. Nədən ki, oturaqlıqdan xilas olmaq, dava-dərmandan uzaq durmaq, sağlam həyat tərzi keçirmək üçün velosipeddən ideal bir vasitə hələ icad edilməyib.

Bir az da sizin üçün beyin idmanı olacağını nəzərə alaraq, burada bir haşiyə çıxmaq istəyirəm. Taleyin kinayəsimi deyim, yoxsa cilvəsimi, bilmirəm. Niderlanda gəldikdən sonra mənim də köhnə bir velosipedim oldu. Artıq 50 yaşını keçmiş bir adamın velosipedə sahib olması, bu uşaqlıq arzusunun gerçəkləşməsinin bunca gecikməsini taleyin kinayəsi adlandırmaq daha doğru deyilmi? Sovet dönəmində "Ukrayna", "Desna", "Şkolnik" kimi velosipedlər indi də gözümün qabağındadır. Mən o velosipedlərdən birinə sahib olacağımın, onunla yel kimi düzü-dünyanı dolaşacağımın xəyallarını neçə dəfə qurduğumu belə unutmuşam. Qaçış velosipedi adlandırdığımız, hansı marka olduğunu indi də bilmədiyim idman velosipedlərini görməyim isə uşaqlığımın nadir hadisələrindəndir. Qısa kəssəm, mən uşaqlığımı velosiped, biz tərəfin yaşlı insanlarının təbirilə desəm, "ayaqmaşını" həsrətilə keçirmişəm.

Velosipedin Niderland həyatına dinamiklik, sağlamlıq gətirən bir vasitə olduğunu artıq bilirik. Onun nədən bu qədər populyar nəqliyyat vasitəsi olması barədə nələrisə qeyd etdik. Amma, deyəsən, bu populyarlığın qaynağı olan əsas məsələni unutmuşuq. Velosiped bir nəqliyyat vasitəsi kimi hamı üçün əlçatandır. Bu barədə də məlumatımız var. Onun bu dərəcədə kütləviləşməsinin, əhali tərəfindən sevilməsinin əsas mənbəyi dövlətin bu sektora qayğısı ilə bağlı olmalıdır. Bu nəqliyyat növünün dövlət səviyyəsində təşviq olunması, elitanın da bundan yararlanması cəmiyyətin digər təbəqələrinin də velosipedə can atmasına, velosipedli olmaq istəyinə gətirib çıxarmışdır. Məncə, Niderland insanlarında kütləvi velosiped sevgisinin kökündə məhz bu durur. Digər bir tərəfdən də velosiped istehsalının günü gündən inkişafı, hər gün yeni, daha təkmil, daha yaxşı dizayn edilmiş, daha cəlbedici modellərin satışa çıxarılması insanların diqqətindən yayınmır və insanların velosiped sevgisini daha da körükləyir.

Qaldı bir məsələ. Əhalinin kütləvi şəkildə velosipeddən istifadə etməsində bu nəqliyyat vasitəsinin hərəkət etməsi üçün xüsusi yolların, xüsusi infrastrukturun yaradılması vacibdir. Bunlar olmadan velosipeddən istifadənin kütləviləşməsi mümkünsüzdür. Niderlandda velosiped yolları hörümçək toru kimi bütün ölkə ərazisini əhatə edir, bütün yaşayış məntəqələri bu yollar vasitəsilə bir-birinə bağlanır. İstər şəhərlərdə, istər də kəndlərdə belə yolların çoxluğu, rahatlığı diqqəti cəlb edir. Üstəgəl, digər infrastruktur elementləri – xüsusi keçidlər, xüsusi tunellər, xüsusi dayanacaqlar bu sahənin inkişafına, bu nəqliyyatdan istifadənin artmasına nədən olur.

Velosiped ildən ilə dərinləşən ekoloji böhranın həllində, meqapolislərin baş ağrısına çevrilmiş nəqliyyat tıxaclarının azaldılmasında müstəsna rol oynayır. Bundan yararlanmağa dəyər, həm də heç fikirləşmədən.

Bir az da özümüzdən danışaq. Səhv etmirəmsə 2016-cı ildən Azərbaycan velosiped istehsal etməyə başladı. Buna nə qədər müvəffəq olduğuna dair də bir fikrim yox. Məni insanımızın bu xəbərə münasibəti maraqlandırır. Bu xəbər mətbuatda görünən kimi, bizim ənənəvi lağlağı kampaniyamıza start verildi. Kiminsə sevincindənmi, nədənmi "İlk milli velosipedimiz" deməsi bizim lağlağılığımıza yeni bir vüsət qazandırdı. Sosial şəbəkələrdə dərrakə dağarcıqlarımızdan biri "mən də milli roqatka düzəldəcəm" deyərək, özünə əl qatmışdı. Niyə də olmasın axı? Çinin hansı zibildən düzəldildiyi bilinməyən quşvuranları niyə dünyanın dörd bir yanında satıla bilər, səninki yox? Sən də düzəlt, sən də sat və qazan! Velosiped yollarının çəkilişinə başlanılıb. Yenə eyni münasibət. Biri uzun dedi, biri gödək. Eh, bizim yanımızda bir it küçüyünün qulağı kəsiləsi deyil. Birimiz uzun deyəcəyik, birimiz gödək. Biz hər dəyərimizə bu cür yanaşmırıqmı? Dövlətin, xalqın simvollarından biri sayılan pulumuzu "Şirvan", "Məmmədəmin", "Nizami", "Qız qalası" deyərək ucuz tutmadıqmı ki, bunları da tutmayaq? Heç bir xalq öz dəyərlərinə bu qədər etinasız, bu qədər barmaqarası münasibət bəsləməz. Bunu da düşünməmiz gərəkir.

Gürcüstan da velosiped istehsalına başlayacağını bəyan edib. Bu xəbərin nə qədər sevindirici olduğunu da vurğulamadan keçmək istəmədim. Gürcüstanda, daha dəqiq desəm, ilk dəfə Rustavidə gördüyüm velosiped yollarının davamının da inşa ediləcəyinə inanıram. Nədən ki, bunların olması, yaradılması zamanın tələbidir.

Koronavirus günlərində, Gürcüstan hökumətinin avtomobillərin hərəkətinə qadağa tətbiq etdiyi günlərdə kəndimizdən sosial şəbəkələrdə paylaşılan videogörüntü diqqətimi çəkdi. Kəndin əsas yolunda xeyli velosipedi bir arada görmək, bu velosipedləri sürənlərin içərisində yaşlıların da olması məni çox sevindirdi. Bunun koronavirus karantini ilə məhdudlaşmayacağını, davamlı olacağını da düşündüyümü bunun üzərinə əlavə etməkdən özümü saxlaya bilmirəm. Hər ziyanda bir xeyir olduğu düşüncəsi, pandemiyadan sonra bizdə də velosipedə tələbatın artacağına, velosiped sürmək istəyənlərin sayca çoxalacağına ümidlərimi birə beş artırır.

P.S. Qonşu Beliçkada da velosipeddən istifadə edənlərin sayı çoxdur. Lakin burada Niderlanddan fərqli olaraq velosipedlərin hərəkəti üçün xüsusi yolların azlığı diqqəti cəlb edir. Məsələn, Bürüssel kimi bir şəhərdə tramvayların, avtomobillərin arası ilə necə gəldi velosiped sürmək, düşünürəm ki, təhlükəlidir. Belçikada avtomobillərin hərəkətində də bir qarma-qarışıqlıq olması diqqətdən yayınmır. Görünür Belçikada yol hərəkəti qaydalarının pozulmasına görə cərimələr az, cəzalar isə yumşaqdır. Niderlandda isə belə qarma-qarışıqlıq yaradanlara, nizam-intizama tabe olmayanlara qarşı sərt cərimələr tətbiq edilməsi nəqliyyatın qüsursuz işləməsində mühüm rol oynayır.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

30 NOYABR
2022-Cİ İL
№ 022 (169)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI


## 2023-CÜ İL "TÜRKİYƏ TƏQAÜDLƏRİNƏ" QEYDİYYAT YANVARDA BAŞLAYIR

TÜRKİYƏDƏ TƏHSİL ALMAQ ÜÇÜN
"TÜRKİYƏ TƏQAÜDLƏRİ"
2023-cü il üçün müraciətlər başlayıb

QARŞINIZA DAHA BÖYÜK
MƏQSƏDLƏR QOYUN

"Türkiyə təqaüdləri" hökumət tərəfindən maliyyələşdirilmiş təqaüd proqramıdır. Təqaüd Türkiyənin ən prestijli universitetlərində tam akademik dərəcə qazanmaq üçün xarici tələbələrə və araşdırmaçılara verilir.

UNİVERSİTET VƏ QƏBUL OLMAQ

YAŞAYIŞ YERİ İLƏ TƏMİN EDİLMƏ

AYLIQ TƏQAÜD

SAĞLAMLIQ SIĞORTASI

TƏHSİL HAQQI

TƏYYARƏ BİLETLƏRİ

TÜRK DİLİ KURSLARI

QEYDİYYAT

"Türkiyə təqaüdlərinə" yalnız "Türkiyə təqaüdlərinin" veb-səhifəsində qeydiyyatdan keçmək mümkündür. Qeydiyyat elektron qaydada olur və pulsuzdur.

- Bakalavr, magistratura, doktorantura və araşdırmaçılara müxtəlif istiqamətlərdə təqaüdlər verilir.
- Bakalavr və magistratura proqramlarına qeydiyyatdan keçmiş tələbələrə universitetdə təhsil almaq və təqaüddən yararlanmaq şəraiti yaradılır.

ELƏ İNDİ MÜRACİƏT EDİN!

TÜRKİYE SCHOLARSHIPS BURSLARI | YTB | @turkiyeburslari

turkiyeburslari.gov.tr


## NONA QAPRİNDAŞVİLİ SƏKKİZİNCİ DƏFƏ DÜNYA ÇEMPİONU OLUB



Gürcüstanın Şahmat Federasiyasının yaydığı məlumata əsasən, şahmat dünyasının əfsanəsi Nona Qaprindaşvili İtaliyada böyüklər (65 yaşdan yuxarı) arasında keçirilən şahmat üzrə dünya çempionatının qalibi olub. N.Qaprindaşvili bu qələbəsi ilə səkkizinci dəfə veteran şahmatçılar arasında dünya çempionu adını qazanıb.

Qeyd edək ki, Gürcüstanın şahmat əfsanəsi həm də on bir şahmat olimpiadasının qalibi və klassik şahmat üzrə beşqat dünya çempionudur.

## QARDABANİDƏN OLAN İDMANÇI AVROPA ÇEMPİONATININ QALİBİ OLUB



11-20 noyabr tarixlərində Türkiyənin Antalya şəhərində böyüklər arasında keçirilən "Wako kikboksinq" üzrə Avropa çempionatında Qardabanidən olan gənc idmançı Emil Xəlilov çempionatın ilk mərhələsində rəqiblərini məğlub edərək növbəti mərhələyə lisenziya qazanıb.

"Beynəlxalq İdman Sənətləri Assosiasiyası"nın Gürcüstan nümayəndəliyinin rəhbəri Tofiq Əkbərov deyib ki, Gürcüstan tarixində ilk dəfədir ki, bir azərbaycanlı kikboksinq üzrə Avropa Oyunlarında iştirak etmək hüququ qazanıb.

"Emil Xəlilov 2023-cü ildə Polşanın Krakov şəhərində keçiriləcək "III Avropa Oyunları" yarışına lisenziya qazandı. Bu, böyük uğurdur və bu yarışdan sonra əsas hədəf 2024-də Fransada keçiriləcək Olimpiya oyunlarıdır", – deyə T.Əkbərov vurğulayıb.

Qeyd edək ki, Emil Xəlilov Qardabanidə fəaliyyət göstərən "Qaracalar" idman klubunun idmançısı, İsfahan Əliyevin yetirməsidir. Emil Xəlilov bu günədək bir sıra xarici ölkələrdə yarışlarda iştirak edib və uğurlar qazanıb.

## MARNEULİDƏN OLAN İDMANÇILAR TBİLİSİDƏ KEÇİRİLƏN TURNİRDƏ 4 MEDAL QAZANIBLAR



Noyabrın 20-si Tbilisidə keçirilən "Georgian Jiu-Jitsu Tour" adlı turnirdə Gürcüstanın regionlarından 5-34 yaş qruplarına aid yüzdən çox idmançı gücünü sınayıb.

Turnirdə Marneulidəki "İnkişaf və Təhsil Mərkəzi"nin nəzdində fəaliyyət göstərən idman klubunun 10 nəfər üzvü də iştirak edib.

Məşqçi İmran Məmmədovun yetirmələri 1 gümüş, 3 bürünc medal qazanıblar.

Turnirdə 70 kiloqram çəki dərəcəsində çıxış edən Yaşar İdrisov II, 23 kiloqram çəki dərəcəsində çıxış edən Adəm Musayev III, 70 kiloqram çəki dərəcəsində çıxış edən Əli Kələyev III və 100 kiloqram çəki dərəcəsində çıxış edən Nazim Çerepanov III yerə çıxıblar.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.